# RƏSMİ SƏNƏDLƏR

- Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

- "Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 3 noyabr tarixli 3563 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

- Akademik Zərifə Əliyevanın 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

- Akademik Zərifə Əliyeva adına Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunun adının dəyişdirilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

- Masallı rayonunun mərkəzində yeni salınmış parka akademik Zərifə Əziz qızı Əliyevanın adının verilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

- Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutuna akademik Zərifə Əliyevanın adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2023-cü ilin aprel ayında Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 100 ili tamam olur.

Akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi tədqiqat laboratoriyası məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayan Zərifə Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf etmiş, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə tibb elminin inkişafında xüsusi xidmətlər göstərmiş görkəmli oftalmoloq alim Zərifə Əliyevanın anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə akademik Zərifə Əliyevanın 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 noyabr 2022-ci il

№ 3563

**"Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 3 noyabr tarixli 3563 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN SƏRƏNCAMI

"Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 3 noyabr tarixli 3563 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə:

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi akademik Zərifə Əliyevanın 100 illik yubileyinə dair tədbirlər planının həyata keçirilməsi ilə bağlı maliyyələşmə zərurəti yarandıqda təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Bu Sərəncamın icrası Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Hüquq və qanunvericilik şöbəsinə həvalə edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli ƏSƏDOV**

**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 11 noyabr 2022-ci il

№ 674s

**Akademik Zərifə Əliyevanın 90 illik yubileyinin keçirilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ilin aprel ayında Azərbaycanın görkəmli alimi, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın 90 illiyi tamam olur.

Akademik Zərifə xanım Əliyeva respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanmışdır. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə tibb elminin inkişafında əvəzsiz xidmətləri olan akademik Zərifə Əliyevanın 90 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə akademik Zərifə Əliyevanın 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 fevral 2013-cü il

№ 2707

**Akademik Zərifə Əliyeva adına Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunun adının dəyişdirilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin akademik Zərifə Əliyeva adına Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutu "Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi" adlandırılsın.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A. RASİZADƏ**

**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 4 avqust 2009-cu il

№ 115

**Masallı rayonunun mərkəzində yeni salınmış parka akademik Zərifə Əziz qızı Əliyevanın adının verilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Masallı Rayon İcra Hakimiyyətinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Masallı rayonunun mərkəzində yeni salınmış parka akademik Zərifə Əliyevanın adı verilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**A. RASİZADƏ**

**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 29 may 2008-ci il

№ 122

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutuna akademik Zərifə Əliyevanın adının verilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda göz xəstəlikləri ilə mübarizədə və oftalmologiya elminin inkişafında akademik Zərifə Əziz qızı Əliyevanın xidmətlərini və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutu kollektivinin müraciətini nəzərə alaraq **qərara alıram:**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutuna akademik Zərifə Əliyevanın adı verilsin.

**HEYDƏR ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 yanvar 2002-ci il
№ 869